# İyirmi beş il əvvəl Azərbaycanı qardaş qırğınından Heydər Əliyevin qətiyyəti xilas etdi

❒ *"1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdü və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdı. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi". – Azərbaycan Prezidenti İlham Əliyevin bu il mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbuldakı nitqində səsləndirdiyi bu fikirlər o məşəqqətli günləri bir anlığa gözlərimiz önündə canlandırdı.*

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsət əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki naşılığı, siyasi səbatsızlığı , qorxaqlığı və cəsarətsizliyi vəziyyəti getdikcə gərginləşdirirdi. Anarxiya və özbaşınalıq, ayrı-ayrı şəxslərə xidmət edən qeyri-qanuni silahlı qruplaşmaların hegemonluğu, insanları qorxu altında saxlaması yenicə qazanılmış müstəqilliyimizi addım-addım uçuruma yaxınlaşdırırdı. Ölkədə yaranmış anarxiyadan istifadə edən AXC-Müsavat cütlüyü 1992-ci ildə qeyri-konstitusion yolla, silah gücünə hakimiyyəti ələ aldı. Bundan sonra vəziyyət daha da pisləşdi. Öz maraqlarını xalqın və respublikanın taleyüklü məsələlərindən üstün tutan AXC-Müsavat iqtidarının üzvləri arasında da birincilik üstündə kəskin qarşıdurma yarandı. Xalqın qanı bahasına qazanılmış müstəqillik getdikcə uçuruma daha da yaxınlaşırdı.

İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulurdu, ölkədə ərzaq, xüsusilə çörək qıtlığı yaranmışdı. Kənd təsərrüfatının, sənayenin tənəzzülü, ölkəyə taxıl əvəzinə qarışıq yem gətirilməsi və digər faktlar gərginliyi, iqtidara qarşı narazılığı daha da artırdı. İqtidar nümayəndələri arasında yaranmış münaqişə, xüsusilə birincilik davası artıq silahlı qarşıdurma həddinə çatmışdı.

Dövlətimizin başçısı Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbuldakı nitqində həmin AXC-Müsavat iqtidarının yarıtmaz fəaliyyətini bir daha xatırladaraq demişdir: "XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti, demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar".

AXC-Müsavat hakimiyyətinin yarıtmaz fəaliyyəti ölkəni vətəndaş müharibsi həddinə çatdırmışdı. Bu vəziyyət, demək olar ki, 4 iyun hadisələrinin yetişməsinə zəmin yaratdı. Həmin vaxt iqtidarın Milli Qəhrəman zirvəsinə yüksəltdiyi Surət Hüseynov, necə deyərlər, ipə-sapa yatmır, ölkənin rəhbərinə tabe olmur, iqtidara meydan oxuyur, onu istefa verməyə məcbur edirdi.

1993-cü il fevralın 22-də Əbülfəz Elçibəyin əmri ilə Surət Hüseynov korpus komandirliyindən uzaqlaşdırılır. Bundan əvvəl isə o, Prezidentin Qarabağ məsələləri üzrə nümayəndəliyindən və baş nazirin müavini vəzifəsindən çıxarılır. Bir neçə gün sonra isə Prezident Əbülfəz Elçibəy Gəncədəki 709 saylı hərbi hissənin ləğvi haqqında sərəncam verir. Lakin bu sərəncamı həmin hissəyə faktiki rəhbərlik edən Surət Hüseynov icra etmir. O, Qarabağda komandanlığın ona verilməsini və 709 saylı hərbi hissənin bərpasını tələb edir.

Bir ay keçməmiş Surət Hüseynov prezidentə yazılı ultimatum göndərərək, onu tanımadığını bəyan edir. Prezident mayın axırlarında 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni bir sərəncam imzalayır. S.Hüseynov prezidentin bu sərəncamına da məhəl qoymur və ora gələn hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin girov götürülməsi barədə əmr verir.

1993-cü il iyunun 4-də bir neçə saat ərzində Gəncədə polis postlarını ləğv edən silahlı qruplaşma icra hakimiyyətinin binasını ələ keçirir və daha sonra tank, "Qrad" qurğusu, qumbaraatan, pulemyot və avtomatla silahlanmış 200 nəfərlik dəstə MTN-in Gəncə şöbəsinə hücum edir. Bina gülləbaran edilir və binadakıların silahları təhvil verməsi, burada olan baş prokuror İxtiyar Şirinov və milli təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbərovun onlarla hərbi hissəyə getməsi tələb olunur. Həmin vaxt Sülhəddin Əkbərov hərbi hissəyə, İxtiyar Şirinov isə qiyamçıların nəzarətinə keçən polis idarəsinə aparılır. Bakıya qayıtmağı istəyən prezident qvardiyasının komandiri və 18 əsgər avtobusdaca gülləbaran edilir. Qiyamçılar artıq saat 16-17 radələrində şəhərin bütün hakimiyyət və hüquq-mühafizə orqanlarını ələ keçirib, ora öz adamlarını rəhbər təyin edirlər.

AXC-Müsavat iqtidarı bu münaqişənin qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Artıq bir sıra ərazilərdə–Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər seperatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.

Surət Hüseynov və onun dəstəsi ağır zirehli texnika, raket qurğuları və çoxsaylı şəxslərdən ibarət qiyamçılar Bakıya istiqamətləndirilirdi. Bundan qorxuya düşən iqtidar mənsubları isə, ilk növbədə, özlərini xilas etmək, canlarını qurtarmaq üçün çıxış yolu axtarırdılar. Belə bir məqamda xalqı öz arxasınca apara biləcək liderə böyük ehtiyac yaranmışdı.

Gəncədə baş verən silahlı insident və vətəndaş qarşıdurması ölkənin varlığına təhdid yaradırdı. Ölkə Prezidenti Əbülfəz Elçibəy vəziyyətdən yeganə çıxış yolunu Heydər Əliyevi Bakıya dəvət etməkdə gördü. Bu, həm də bütün Azərbaycanlıların istəyi idi. Çünki xalq ulu öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsinə, siyasi uzaqgörənliyinə, həmçinin, Vətəninə məhəbbətinə, qədirbilənliyinə yaxşı bələd idi.

Ulu öndər Heydər Əliyev o dövrdə baş verənləri belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

İyunun 4-də Gəncədə baş verən hadisələrdən sonra ölkənin hər yerindən Naxçıvana göndərilən minlərlə məktub müəlliflərini bir amal birləşdirirdi: "Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasa, Azərbaycan xilas ola bilməyəcək". Xalqın çoxsaylı müraciətlərində bildirilirdi ki, Sizin Bakıya qayıtmağınız biz insanlardan daha çox anamız Azərbaycana lazımdır.

Ölkə ziyalıları, tanınmış ictimai-siyasi xadimlər, sadə insanlar da belə respublikaya rəhbərlik edə biləcək yeganə şəxsin məhz görkəmli dövlət xadimi Heydər Əliyev olduğunu açıq şəkildə bəyan edirdilər. Müraciətlərdə bildirilirdi: "Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə insan Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz" Bu, hələ son deyildi. Ali Sovetin deputatları, hökumətin üzvləri, hətta o dövrdəki prezident başda olmaqla, bütün dövlət adamları ulu öndər Heydər Əliyevə müraciət göndərir, onun Naxçıvandan Bakıya gəlməsini israrla xahiş edirdilər.

Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbuldakı nitqində Prezident İlham Əliyev xalqın ulu öndərə münasibətini, etimad və böyük ümid olduğunu xatırladaraq demişdir: "Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə - Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir".

Həyatının qalan hissəsini xalqına həsr etməyə hazır olan ulu öndər Heydər Əliyev Bakıya gəldi, Azərbaycanı düçar olduğu bəladan xilas etdi, müstəqilliyimizi qorudu və əbədiyyətə çevirdi.

1993-cü ildən başlayaraq, Azərbaycan sürətli inkişaf yolu ilə inamla irəli gedir.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

---

***"1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***